## ETNOQRAFİYA

***Şirin Teymur qızı Bünyadova***
*BDU-nun «Arxeologiya və Etnoqrafiya» kafedrasının professoru, t.e.d.*
E-mail: Shirin_bunyad @mail.ru

# DASTANLAR AİLƏNİN ÖYRƏNİLMƏSİNDƏ ETNOQRAFİK MƏNBƏ KİMİ

**Açar sözlər**: Azərbaycan, dastan, ailə, etnoqrafiya, mənbə
**Ключевые слова**: Азербайджан, эпос, семья, этнография, источник
**Key words**: Azerbaijan, epic, family, ethnography, source

Etnoqrafiya elmi sahəsində nailiyyətlərin əldə olunması və daha da inkişaf etdirilməsi yolunda aparılan araşdırmalar mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalqının etnoqrafiyasının hərtərəfli şəkildə araşdırılması yolunda müxtəlif mənbələrin tədqiqata cəlb olunması zəruri bir məsələdir. Belə mənbələri heç bir vəchlə diqqətdən kənarda qoymaq mümkün deyildir. Çünki onlar bilavasitə xalqın gündəlik həyat tərzini bütün çalarlarıyla özündə yaşadır. Onu qeyd edək ki, xalqımızın məişət və mədəniyyətinin öyrənilməsində köməkçi vasitə kimi şifahi xalq yaradıcılığı nümunələri mühüm əhəmiyyətə malikdir. Belə ki, onlarda tarixi keçmişimiz, xalqımızın gündəlik yaşam biçimi, çoxəsrlik adət və ənənələri, ənənəvi davranış stereotipləri, dünyagörüşü, müxtəlif və zəngin mərasimləri boy göstərir. Xüsusən Azərbaycan xalq dastanları özündə ehtiva etdiyi etnoqrafik baxımdan əhəmiyyətli ailə və məişət məsələlərinin öyrənilməsində mühüm bir mənbə kimi olduqca dəyərlidir və onların araşdırılması elm sahəsinin hərtərəfli inkişafına yeni keyfiyyət qazandırır.

Xalq dastanlarımızda minilliklərdən bəri süzülüb gələn elimizin-obamızın maraqlı adət və ənənələri bütün çalarlarıyla öz dərin ifadəsini tapmışdır. Onlardan bəziləri müasir dövrdə məhv olub getsə də, məhz dastanlarımızda varlığını qoruyub saxlamışlar. Bugün biz məhz onların vasitəsilə bir zamanlar var olan adətlərimizi öyrənə bilir və onların qədimliyini sübuta yetiriməyə çalışırıq.

Dastanlarımızda əks olunan etonoqrafik xüsusiyyətlər xalqımızın həyatının müxtəlif sahələrinə aiddir. Məsələn, təsərrüfat, maddi və mənəvi mədəniyyət məsələlərinin onlarda yer almasını qeyd etmək lazımdır. Bundan əlavə ailə və ailə məişəti ilə bağlı xeyli məlumatları məhz dastanlarımızdan əldə etmək mümkün olur. Çünki dastan yaradanlar canlı həyatın ən mühüm motivlərini təsvir edərkən xalqın həyat tərzini tərənnüm etməyə çalışmışlar. Onlar həm əsrlərdən üzü bəri gələn xalq adətlərini şərh etmiş, həm də şahidi olduqları bütün hadisələr çərçivəsində mövcud olan məişəti qabarıq şəkildə təsvir etmişlər. Dastanlara əsasən aydın olur ki, ənənə və adət çərçivəsində yaşayan xalqımız özünəməxsusluğu qoruyaraq müəyyən davranış qaydalarına riayət etmişdir.

Dastanların yarandığı çoğrafi və tarixi mühit hər zaman nəzərə alınmalıdır. Belə ki, orta əsrlərin abı-havası onlarda özünü hərtərəfli şəkildə büruzə verir. Xüsusilə bir məsələyə nəzər-diqqəti yetirmək zəruridir ki, tarixi şəraitin doğurduğu özünəməxsusluq və ona xarakterik olan bir sıra qanunauyğunluqlar bütün dövrlərdə öz sözünü demişdir. Dastanlarda mühüm əhəmiyyətə malik məkan və zamanla bərabər, həmçinin təsvir olunan dövrdə insanların dini inam və təsəvvürləri, sitayiş obyektləri, düşüncə tərzi və estetik görüşləri, duyğu və arzuları, bir sözlə, məişət tərzi və mədəniyyət səviyyəsi əks olunmuşdur.

Hər bir xalqın etnik birliyi, onun psixikası, xarakterik xüsusiyyətləri, dəyərlər sistemindəki özünəməxsusluq, zövqü və s. birbirilə vəhdətdə olan məsələlərdir. Bu silsilə məsələləri nəzərə almadan ayrı-ayrı etnosların həyat fəaliyyətinin təminatını, mexanizmini və nəsildən-nəsilə ötürülmə xüsusiyyət-

lərini heç cür aydınlaşdırmaq olmaz. Azərbaycan xalqının keçdiyi uzun tarixi inkişaf yolunda yaratdığı və əsrlər boyu yaşatdığı ailə ilə əlaqədar adət və ənənələrin, mərasimlərin, ayinlərin haqqında məlumatlarımızın bir mənbəyini də məhz dastanlar təşkil edir.

Qeyd etmək lazımdır ki, «mədəniyyət insan fəaliyyətinin bütün maddi və qeyrimaddi məhsullarıdır, obyektivləşdirilmiş və kifayət qədər geniş toplularda qəbul edilmiş və sonrakı nəsillərə ötürülmüş ideyalar, dəyərlər, sərvətlər və qəbul olunmuş davranış tərzləridir. Mədəniyyət həmişə məkanda və cəmiyyətdə lokallaşdırılmış olur» (2, 50). Belə ki, qədimdə baş verənləri bu günümüzlə müqayisəli şəkildə təhlil edərkən bir sıra məsələlər lazımınca dəyərləndirildikdə, onların bəzilərinin keçmişdən bizə miras qaldığını və nələrin isə tarix səhnəsindən silinib getdiyini daha yaxşı müəyyənləşdirə bilirik.

Azərbaycan dastanlarında ailə ilə bağlı xatırlatmalar demək olar ki, bütün məişət məsələlərinə aiddir. Ailə həyatının demək olar ki, elə bir məsələsi yoxdur ki, dastanlarda öz əksini tapmasın. Nikah, qızbəyənmə, ağızarama, elçilik, nişan, toy, başlıq pulu, xınayaxdı, gəlin və bəy hamamı, adqoyma, dəfn, və s. kimi xalqımıza minilliklər boyu xarakterik olan adətlər dastanlarımızda əks olunmuşdur.

Təkcə «Kitabi Dədə Qorqud»u misal götürmək kifayət edir. Burada adları çəkilən yer adlarından tutmuş məişət, mədəniyyət və davranış tərzinə qədər olan təsvirlərdə etnoqrafik nümunələr bütün çalarlarıyla özünü göstərməkdədir. Xüsusən xalqımıza aid ailə məişətinin mühüm keyfiyyətlərini, adətləri və mərasimləri əks etdirdiyindən istər tarixi baxımdan, istərsə də etnoqrafik nöqteyi-nəzərdən dəyər kəsb edən bu dastanın yüksək məziyyətini qeyd etməliyik. Bu dastanı tarixi keçmişimizdən süzülüb gələn adətlərin qədimliyini izhar etmək üçün faydalı mənbə hesab etmək olar. Burada ailə məişəti ilə bağlı qızbəyənmə, elçilik, toy, tərbiyə, adqoyma, dəfn və s. məsələlər yer almış, mərasimlərimiz olduğu kimi təsvir edilmişdir.

Azərbaycanda qədimlərdən mövcud olan göbəkkəsmə adəti haqqında dastanların əksəriyyətində məlumat verilir. Yaxın dostlar və ya qohum ailələr xalq arasında mövcud olan göbəkkəsmə (beşikkərtmə) adəti ilə körpə yaşlı uşaqlarını erkən vaxtlardan etibarən deyikli elan edirdilər və məlum olduğu kimi, burada əsas seçim valideynlərdən asılı olurdu. Bu adət təkcə Azərbaycanda deyil, eyni zamanda başqa türk mənşəli xalqlarda da indiyədək mövcuddur. Eyni vaxtda yaxın dostların birinin qızı, o birinin oğlu olardısa və ya birinin oğluna müvafiq digərinin qızı müəyyən yaş fərqilə uyğun gələrdisə, valideynlər arasındakı sözləşmə ilə onlar deyikli sayılırdılar (3, 22). Bu hal «Kitabi–Dədə Qorqud» dastanında da belə əks olunmuşdur: «Baybican bəy dedi: «Bəylər, siz şahid olun, Allah-taala mənə bir qız verərsə, Baybörə bəyin oğluna göbəkkəsmə adaxlı olsun!» (4, 150) Etnoqrafik məlumatlar təsdiq edir ki, bu zaman qızın beşiyini bir balaca kərtirdilər. Bəzən isə əmi uşaqlarının da beşikkəsməsi olduğu bir sıra mənbələrdən aydın olur.

Elçilik zamanı kişilər gedirsə, qız yiyəsinə əsasən hansı sözlərlə müraciət edildiyi «Kitabi-Dədə Qorqud»da şərh olunmuşdur:

Qarşı yatan uca dağını aşmağa gəlmişəm.
Coşub daşan təmiz suyunu keçməyə gəlmişəm.
Gen ətəyinə, dar qoltuğuna qısılmağa gəlmişəm.
Tanrının əmriylə, peyğəmbərin rəyi ilə
Aydan arı, gündən duru bacın Banıçiçəyi
Bamsı Beyrəyə diləməyə gəlmişəm! (4, 154)

Yeri gəlmişkən qeyd edək ki, «Kitabi-Dədə Qorqud»da elçilik «kiçik düyün», «ağır düyün» adlanır» (5, 111). Dastanda belə bir məqam diqqəti cəlb edir. Beyrək barmağındakı qızıl üzüyü çıxarıb qızın barmağına keçirir və deyir ki, «bu üzük aramızda nişan olsun, xan qızı!» (4, 153) Nişan kəlməsinin mahiyyəti buradan bir başqa cür anlaşılır. Yəni ikisinin arasında bir işarə, bir bağ kimi başa düşülür. Bundan əlavə dastanda «Yalançı oğlu kiçik nişanını eylədi. Böyük toy günü üçün vaxt qoydu»-deyilir (4, 156). Burada adı çəkilən nişan isə mərasim mənasını bildirir. Hələ lap qədim zamanlarda adət var idi ki, adaxlı qız nişanlısına köynək toxuyardı.

Bunun təsdiqi kimi «Kitabi-Dədə Qorqud» dastanından misal gətirmək olar: «Adaxlısına aparın, görsün. O yaxşı bilər. Çünki o tikibdir, yenə o tanıyar» (4, 156). Adətin sonrakı dövrlərdə davam etməsi də etnoqrafik məlumatlarla təsdiqlənir.

«Kitabi-Dədə Qorqud» dastanında əlləri xınalı qızlar barədə xatırlatma vardır (4, 166). Günəşin qürub zamanı, ocağın yanması vaxtı, gül-çiçəklərin və nəhayət, qanın rəngi olan qırmızının təbiətdə daha çox müşahidə olunduğunu söyləmək olar. Bu rəng çaları məişətdə daha çox nəzəri cəlb etmişdir. Odur ki, insanların təsəvvüründə həkk olunaraq müxtəlif mərasimlərdə ondan istifadəni zəruri etmişdir. Bu xüsusda V.Vəliyev göstərir ki, «bizdə qırmızı geyinmək, ələ xına yaxmaq sevinc və xoşbəxtlik rəmzidir. Qədim zamanlardan dövrümüzə kimi gəlib çatan bu adət qədim azərbaycanlıların günəşə, oda sitayişi ilə daha çox əlaqədardır. Günəşin yerdə nişanəsi hesab edilən odun qırmızı rəngdə olması insanların bu rəngə müsbət münasibətini meydana çıxarmışdır» (10, 103). Bu təsəvvürlər də məhz ayinlər vasitəsilə məişətdə reallaşa bilmişdir.

Toyla bağlı qədim adətlərdən biri türkdilli xalqların möhtəşəm abidəsi olan «Kitabi Dədə-Qorqud» dastanında yer almaqdadır. Belə ki, «oğuz zamanında evlənən hər igid ox atardı. Oxu düşən yerdə də gəlin otağı qurardı. Beyrək xan da oxunu atdı, oxu sancılan yerdə otağını qurdurdu. Adaxlısından bir bəylik qaftan gəldi» (4, 155). Göründüyü kimi, bəy geyimini də qızın özünün hazırlayıb oğlana göndərməsi bir adət imiş. Dastanda nəzəri cəlb edən bir başqa məqam da vardır ki, məlum olduğuna görə «Bayböyrə bəyin oğlu Beyrək Baybican bəyin qızını aldı. Hündür evlərinə, ağ otağına qayıtdı. Toy şənliyinə başladı. Bu qırx igidin bir neçəsinə Qazan xan, bir neçəsinə Bayandır xan qız verdilər. Beyrək də yeddi bacısını yeddi igidə verdi. Qırx yerdə otaq tikdirdi. Otuz doqquz qız hərə bəxtinə-taleyinə görə bir-bir ox atdı. Otuz doqquz igidin hər biri öz oxunun ardınca getdi. Qırx gün–qırx gecə toy-düyün etdilər. Beyrək igidlərlə birlikdə öz muradına çatdı.» (4, 165) Deməli, qızlar da bəxtlərini beləcə ox ataraq sınayırmışlar. «Kitabi Dədə-Qorqud»da bəy–gəlin otağının qırmızı rəngdə tikildiyi, toy mərasimində qopuz çalındığı qeyd edilir. (4, 188; 220) Toyda Dədə Qorqudun qopuz çalmasının qeyd edilməsi tarixən toyların ənənəvi olaraq musiqinin müşayiəti ilə keçdiyini göstərir. Bu ənənə hələ də davam etməkdədir.

«Kitabi–Dədə Qorqud» dastanında sağdışın adı çəkilir (4, 213). Başqa müəlliflərin yaradıcılığında olduğu kimi, «Dastani–Əhməd Hərami»də də toy və kəbinin yeni ailənin qurulmasında mühüm amil olduğu aydın görünür (1). Hələ «Kitabi–Dədə Qorqud» dastanında toy zamanı bir sıra heyvanların ətindən istifadə edildiyi qeyd edilir. Məsələn, dastanda deyilir: «Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirdi. Toy etdi. Qalın oğuz bəylərini çağırıb əzizlədi» (4, 191). Bu ənənə davam etmişdir. Formaca dəyişsə də, məzmun etibarilə hələ də toy mərasimi davam etməkdədir.

Hələ ««Kitabi–Dədə Qorqud» dastanında Dirsə xan da nəzir-niyaz və qurban yolu ilə övlad qazana bilir. Dastanda bu məsələ ilə əlaqədar belə deyilir: «Dirsə xan arvadının sözü ilə böyük məclis qurdurdu, Allahdan istəyini dilədi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç oğuz, Daş oğuz bəylərini ora topladı. Ac gördüsə, doydurdu. Yalın gördüsə, geyindirdi. Borclunu borcundan qurtardı. Təpə kimi ət yığdı. Göl kimi qımız sağdırdı. Əl götürüb arzularını dilədilər. Allah bir ağzı dualının alqışı ilə övlad verdi. Arvadı hamilə oldu. Bir neçə müddətdən sonra bir oğlan doğdu» (4, 133-134). Ailədə övladın olmasının böyük əhəmiyyət kəsb etməsi, hətta uşağı olmayan ailələrdə bu yolda nəzir-niyaz verilməsi əksər dastanlarda («Lətif şah», «Qurbani», «Tahir və Zöhrə», «Əsli və Kərəm», «Novruz və Qəndab» və s.) şərh olunur. Bu Azərbaycan xalqına xas xüsusiyyətdir. Bu əlamət türk xalqlarının əksəriyyətinə xas olduğu kimi, Azərbaycanda yaşayan digər etnik qruplara da xarakterikdir. Hətta uşağı olmayan qadınların bununla əlaqədar ayrı-ayrı ziyarətgahlara getməsi, müxtəlif çillə kəsmə ayinlərini icra etməsi bugün də qalmaqda davam

edir. Bu xüsusiyyət qədim təsəvvürlərin izlərini özündə daşıyır.

«Kitabi-Dədə Qorqud» dastanında ad verilməsi məsələsi öz geniş əksini tapmışdır. Dastandan məlum olduğu kimi, uşağa adı göstərdiyi hünərə və əməlinə görə layiq bilərdilər və bu adı oğlan uşağına ağsaqqal verərdi. Dədə Qorqud qeyd edir ki, güclü, ərdəmli, hünərli və cüssəli olduğuna görə oğlana ad qoyulur. Maraqlıdır ki, dastandan da məlum olduğu kimi oğuz bəyləri ad qoyarkən Dədə Qorqudu çağırır, yeniyetmənin atasından isə bəylik və taxt alıb verməsini istəyirlər. Dastanda deyilir: «bu oğlan Bayandır xanın uca meydanında vuruşmuşdur. Sənin oğlun bir buğa öldürmüşdür, qoy adı «Buğac» olsun. Adını mən verdim, yaşını Allah versin - dedi» (4, 134). Buradakı ad əsasən şan-şöhrət mənasında başa düşülür və veriləndən çox, qazanılan bir məna çaları kəsb edir və el ağsaqqalı hesab olunan Dədə Qorqudun gəlib mərasimdə həddi-büluğa çatmış oğlana ad verməsi kimi təqdim olunur. Burada ad qəhrəmanlıq rəmzi və hünər əlaməti kimi təqdim olunur. Deməli, oğuzlarda da başqa xalqlarda olduğu kimi kişilik mərhələsinə keçid müəyyən ayinlə müşayiət olunurdu və bu zaman ad da qoyulurdu.

XIII əsrin müəllifi bəlli olmayan «Dastani–Əhməd Hərami» poemasında toya qədərki müxtəlif adət və ənənələr öz geniş əksini tapmışdır. Bunlardan biri də elçilikdən əvvəl qızbəyənmə adətidir. Bu işdə ən çox məsuliyyətin yenə də ananın üzərinə düşdüyü işıqlandırılır. Belə ki, əsərdə ananın bəyəndiyi qızı öz oğluna kəbin etmək istəyi təsvir edilir. Yəni əvvəlcə ana qızı «gözaltı» edir. Burada deyilir:

Der idi kim gecə – gündüz arasam,
Sərasər dünyayı bir – bir darasam.
Bunun kimi lətif qanda bulaydım,
Ki, oğlüma anı kəbin qılaydım (1, 133).

Güləndam ilə ünsiyyətdə olduqdan sonra qızı bəyənib onu öz oğluna almaq istəyən ana oğlunun yanına gedir. O məsləhət görür ki, oğlu da eyni zamanda özü qızı görüb bəyənsin. Bu minvalla da oğlu ilə söhbətində ana qızın gözəlliyini vəsf etməklə yanaşı, eyni zamanda onun hansı ailəyə mənsub olduğunu, ailənin yeganə övladı olduğunu da vurğulamağı unutmur. Oğlanın anasına bu xüsusda cavabı isə belə olur ki, əgər onun da canı sevsə və qıza könül versə, bu işdə razılıq hasil oluna bilər. Anası da əvvəlcədən oğlu ilə şərtləndirdiyi kimi, aynabəndin önündən qızı gətirərkən onu görməsi üçün oğlunun köşkün pəncərəsindən boylanmasını məsləhət görür (2, 133–134). Beləliklə də, qızın bəyənilməsində ilk olaraq əsasən ananın rəyinə üstünlük verildiyi əsərdən aydın görünür.

Elçilik zamanı qız evinin də münasibəti mühüm məsələlərdən biridir. Bu məsələyə də orta əsr müəllifləri öz əsərlərində yer vermişlər. Belə ki, «Dastani–Əhməd Hərami»də elçilik edənə qızın atası tərəfindən bildirilən münasibət əsərdə belə təsvir olunur:

Bu dənli ki kərəmlər qıldı bana
Qızımı verirəm şükranə ona.
Bana bir qol – qanad olsun otursun
Elinə getməsin, bənimlə dursun (1, 118-119).

Burada maraqlı bir məqam nəzəri cəlb edir. Belə ki, hər bir valideyn kimi, atanın da qızının uzaq ellərə qismət olmasını istəməməsi bəllidir. Gözündən uzaq olmasına könlü dayanmayan ata qızının və kürəkəninin onunla bərabər qalmasını arzulayır.

«Dastani Əhməd Hərami» əsərində də oğlanın qızı görüb bəyəndikdən sonra toy etdiyi göstərilir:

Göricək yüzini bin canü dildən,
Guləfrux sevdi anı bin könüldən.
Dügün eylədi, kəbin etdi aldı,
Əcəb budur anı həm bikr buldı.
Bədəxşan şahı sağdıc oldı ana (1, 141).

Dastanların əksəriyyətində toyların 3, 7 və 40 gün qeyd olunması barədə məlumat verilir. Aydındır ki, bu da cəmiyyətin yuxarı zümrəsinə xaraterik xüsusiyyət idi.

Dastanlarda dayəlik haqqında məlumata rast gəlmək olur. «Kitabi–Dədə Qorqud»

dastanında deyilir ki, Dirsə xanın «arvadı hamilə oldu. Bir neçə müddətdən sonra bir oğlan doğdu. Oğlancığı dayələrə verdi, saxlatdı» (4, 134). Buradan görünür ki, bir uşağı saxlamaq üçün bir neçə dayə tutulurdu. Bu görünür, dayələr arasında iş bölgüsünü təmin etmək məqsədi daşımışdır. Körpənin normal inkişafı, rahatlığının təmin olunması və gümrahlığı dayəyə etibar edilirdi. Deməli, dayə ailədə ən etibarlı və inanılmış adam olurdu. Uşaqlar böyüdükdən və müəyyən yaş həddinə çatdıqdan sonra süd verən dayələrin əhəmiyyəti azalırdı. Belə ki, bu vaxtlar uşaqlara ilk olaraq əmək vərdişlərinə yiyələnmək tərbiyə olunurdu. Müəyyən biliklərə yiyələnmək üçün onlara mütləq tərbiyəçi lazım olurdu. Burada dayənin tərbiyəçi rolu önə çıxırdı. Əgər dayə tələblərə hərtərəfli cavab verirdisə, o, bir müddət də ailədə tərbiyəçi kimi qala bilərdi. Dayə haqqında xatırlatmalara dastanlarımızda çox rast gəlinir. XVI əsrin yadigarı sayılan «Qurbani» dastanında deyilir: «Oğlanın adını qoydular Qurbani, tapşırdılar dayələrə. Tainki, uşaq yeddi yaşa çatdı, bir kamil molla tapıb uşağı tapşırdılar ona» (20, 39). Eyni motiv «Novruz» dastanında da yer almaqdadır. Burada da deyilir ki, «uşağı dayəyə tapşırdılar. Dayə uşağı bəsləməyə başladı. Ta ki, uşaq yeddi, səkkiz yaşa çatanda atası onu molla yanına oxumağa qoydu.» Bununla bərabər «Tahir və Zöhrə» dastanında doğulmuş uşaqların kamil bir dayəyə tapşırıldığı söylənilir (7, 170; 127).

Qonaqpərvərliklə bağlı dastanlarda yer alan məqamlar təhlil edilmişdir (6, 97-105). «Kitabi–Dədə Qorqud» dastanında xanlar-xanı xan Bayandırın ildə bir kərə toy edib Oğuz bəylərini qonaqlaması barədə də bəhs olunur (4, 16). Koroğlunun özü isə qonağı barədə «Qonaq ki, var, mənim əzizim, iki gözümdü», - söyləyir (8, 243). «Koroğlu» dastanında xanın qurduğu məclisin təsviri isə belə verilir: «Elə ki, xan üzrxahlığını elədi, yemək-içmək başlandı, saqi girdi məclisə. Ələmqulu xan dəlilərə burada bir qonaqlıq verdi, bir qonaqlıq verdi ki, nə deyim. Yedilər, içdilər, çalğıçılar çaldı, oxuyanlar oxudu, gecədən də bir az keçmiş məclis dağıldı» (8, 268) Yuxarıdakı misralarda dərin köklərə malik olan qonaqpərvərlik öz parlaq ifadəsini tapmışdır. Bu adətin yaranması cəmiyyətin özünün tələbatı ilə baş vermiş, məhz bu zəmində də müəyyən qaydalar formalaşmışdır (6, 101). Qeyd edək ki, «Aşıq Qərib», «Tahir-Zöhrə», «Məhəmməd Güləndam» və s. məhəbbət dastanlarında da ara-sıra mövcud olan qonaqpərvərliklə bağlı məqamlara rast gəlmək mümkündür (9). Göründüyü kimi, məişətdə həlledici rol oynayan qonaqpərvərlik adəti görk səciyyəsi daşımır, yaşam tərzinin bir parçası kimi, arzuolunan bir hal kimi təqdir edilir.

Beləliklə, Azərbaycan dastanlarından aldığımız ümumi təəssürata söykənərək söyləyə bilərik ki, onlar xalqın gündəlik məişətini, ailə ilə bağlı adətləri, müxtəlif mərasimləri özündə yaşadır. Onlarda ailə məişəti ilə bağlı bütün məsələlərə (qızbəyənmə, elçilik, toy, adqoyma, qonaqpərvərlik, dəfn mərasimləri, tərbiyə və s.) rast gəlmək mümkündür. Ürəkləri sızladan hekayələri şərh edərkən dastançılar təsvir etdikdəri hadisələri özünəməxsus şəkildə canlandırmağa çalışır, xalqın ruhunu ifadə edirdilər. Dastanlardakı adət və ənənələr etnoqrafik müşahidələrlə də təsdiq olunur. Dastanlarda əks olunan bəzi adətlərimiz şəkli dəyişmiş formada sonralar da mövcud olmuşdur.

## ƏDƏBİYYAT

1. Dastani Əhməd-Hərami. Azərbaycan klassik ədəbiyyatı kitabxanası 20 cilddə, 3 c. Bakı, Elm, 1984, 544 s
2. Quliyev R. Sosiologiya: nəzəriyyə və tədqiqat metodologiyası. Bakı, Siyasət, 1995, 424 s
3. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi. Bakı, Elm, 2012, 384 s
4. Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1988, 265 s
5. Abdullayev B. Azərbaycan folklorunda ailə-məişət mərasimləri və onların poetik mətnləri. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər VII. Bakı. Elm, 1987 s. 80-140
6. Bünyadova Ş. Azərbaycan qonaqpərvərli-

yi. Bakı, Elm, 2005, 152 s
7. Azərbaycan dastanları (5 cilddə). 1 c. Bakı, Lider nəşriyyat, 2005, 392 s
8. Azərbaycan dastanları, 5 cilddə, 4 c. Bakı, Azərbaycan EA Nəşriyyatı, 1969
9. Azərbaycanın məhəbbət dastanları. Bakı, Elm, 1979, 501 s
10. Vəliyev V. Azərbaycan şifahi xalq ədəbiyyatı. B. ADU nəşr., 1970, 340 s

***Ширин Теймур кызы Бунятова***

## АЗЕРБАЙДЖАНСКИЙ ЭПОС КАК ЭТНОГРАФИЧЕСКИЙ ИСТОЧНИК ДЛЯ ИЗУЧЕНИЯ СЕМЬИ

### *РЕЗЮМЕ*

Статья посвящена изучению семьи и семейного быта с помощью дастанов (повествование) как источника, одного из жанра фольклора. В развитии этнографической науки Азербайджана изучение разных жанров фольклора имеет большое значение. Для всестороннего изучения этнографического наследия Азербайджанского народа разные источники имеют большое значение. Из этих источников можно извлечь нужный научный материал. Особенно важен, исследовать лирический и героический эпос, как этнографический источник. Богатое народное творчество нашего народа ценен как вспомогательный источник. Они богаты этнографическими мотивами. В них отражены материальная, духовная культура, а также вопросы семьи и семейного быта.

Как составная часть этнографии семья имеет огромное значение в жизни общества.

Надо отметить, что этнографические мотивы относятся средневековье. В них описываются мировоззрение, нравы, стереотипы поведения народа. Разные обычаи и обряды находят свое глубокое отражение в фольклоре. По данным дастанов можно установить их древность. По собранному материалу мы узнаем о браке, свадебном церемонии, рождении ребенка, наречении имени, о воспитании. Здесь также можно узнать об обычае гостеприимства и похоронном обряде. Все обычаи и церемонии связанные с семьей отражают дух народа присущее средним векам.

***Shirin Teymur gizi Bunyadova***

## AZERBAIJAN EPIC AS ETHNOGRAPHIC SOURCE FOR THE STUDY OF THE FAMILY

### *SUMMARY*

The paper studies the family and family life with the help of dastans (narration) as the source of one of the genre of folklore. In the development of Azerbaijan ethnography study of different genres of folklore is of great importance. For a comprehensive study of the ethnographic heritage of Azerbaijan people from different sources are of great importance. From these sources, you can retrieve the scientific material. Especially important to explore the lyrical and heroic epic as ethnographic source. The rich folklore of our people is valuable as an auxiliary source. They are rich in ethnographic motives. They reflect the material and spiritual culture, as well as issues of family and family life.

As part of Ethnography family is of great importance in society. It should be noted that the ethnographic motifs include the Middle Ages. They describe the world, customs, behavior patterns of the people. Different customs and rituals find their deep reflection in folklore. According dastans can set their antiquity. According to the collected materials we learn about marriage, wedding ceremony, birth, name-giving, about education. Here you can also learn about the customs of hospitality and funeral rites. All customs and ceremonies related to the family reflect the spirit of the people inherent in the Middle Ages.